## *ƏN QİYMƏTLİ HƏDİYYƏ*

Leyla babası ilə dənizdən qayıdırdı. Onlar şəhərin küçələrindən keçərək evlərinə gedirdilər. Qabaqda böyük izdiham görən baba dedi:

- Gedək, qızım. Heydər baba fəhlələrin görüşünə gəlib. Gedək biz də baxaq o böyük insana.
- Baba, Heydər babaya lap yaxından baxmaq istəyirəm.

Onlar izdihama yaxınlaşdılar. Heydər baba adamların əhatəsində idi. Əlləri ilə təzə ucalan binaları göstərib nəsə deyirdi.

Adamlar sevinc içində idilər.

Babası dedi:

- Hə... təzə şəkil qalereyası istifadəyə verilib. Rəhbər buna xeyir-dua verməyə gəlib.

Heydər baba xeyli danışdı. Adamlar əl çalıb ona məhəbbətini bildirdilər. Birdən Heydər baba balaca Leylanı görüb ona doğru addımladı, ən qəribəsi də bu oldu ki, Leyla da ona doğru yüyürdü. Əllərini uzadıb rəhbəri qucaqladı.

Heydər baba balaca qızı bağrına basdı:

- Vətənimizin gələcəyi bunlarındır, - dedi, - uşaqları qoruyun və sevin.

Sonra cibindən balaca bir qələm çıxarıb Leylaya verdi.

- Sən də rəssam olacaqsan. Bu qələmlə gözəl şəkillər çəkərsən...

O vaxtdan Leyla həmin qələmi əlindən yerə qoymur. Ona elə gəlir ki, qələmdə Heydər babanın əlinin, ürəyinin istisi var.

***Məmməd Namaz***

***Günəş ömürlü insan. – B.: Təhsil, 2012. – S.5***